BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3* *Humanitar elmlər seriyası* *2009*

# JURNALİST MÖVQEYİ ETİK NORMALAR KONTEKSTİNDƏ

**S.RƏHİMOVA**
***Bakı Dövlət Universiteti***
***simabdu@mail.ru***

*Məqalədə jurnalistin fəaliyyətindəki etik prinsiplərdən, kommunikativ, interaktiv və qavrama ünsiyyətinin səciyyəvi xüsusiyyətlərindən, onların KİV-də oynadığı roldan, şəxsiyyət ləyaqətinin dövlət tərəfindən qorunmasından, jurnalist peşəsinin özəllikləri və çətinliklərindən bəhs olunur.*

Jurnalistin cəmiyyətdə yeri və mövqeyi danılmaz bir faktdır. O hamının qarşısında məsuliyyət daşıyır və bu hissi itirməməlidir. Bildiyimiz kimi, jurnalistika xəbərdən başlayır. Nə baş verib, harada baş verib, necə baş verib? Bütün bunları çatdıranlar isə jurnalistlərdir. Jurnalistlər öz fəaliyyətini daxili məsuliyyət hissi ilə yanaşı, qanunlara, qanunvericilik aktlarına, auditoriyanın, peşə mühitinin hamı tərəfindən qəbul edilən prinsip və normalarına uyğun qurmalıdır. Jurnalist fəaliyyətində etik prinsipləri bilmək və onlara əməl etmək – oxucu, dinləyici və tamaşaçı inamı qazanmaqdır. Bu, hər hansı bir reklamdan gələn gəlirdən daha etibarlı və uzun ömürlüdür.

Jurnalistin fəaliyyətində etik prinsipləri bilməklə, qanunlara əsaslanmaqla yanaşı, ünsiyyət də çox böyük rol oynayır.

Ünsiyyət insanlar arasında birgə fəaliyyətin tələbatından törənmiş təmasın müəyyən edilməsi və inkişafına kömək göstərən mürəkkəb, çoxplanlı prosesdir. Ünsiyyət insanlar arasında qarşılıqlı əlaqə yaradan dialektik bir prosesdir.

İnsanın zəkası və fəaliyyəti irəliyə və yüksəkliyə can atır. Yaşayan hər bir şəxs düşünür, daim irəliləyir, ünsiyyət vasitəsi ilə dəyişir. Onu əhatə edən mühitlə təmasda olur, ətrafdakı insanlarla ünsiyyət qurur. Bu zaman KİV də insanlar arasında vasitəyə çevrilir.

Kommunikativlik (ünsiyyət yaratmaq), interaktivlik (qarşılıqlı fəallıq) və qavrama ünsiyyətin səciyyəvi xüsusiyyətləridir. Elmi məlumatların çoxalması, tənqidin yaranması, təlim-tərbiyənin genişlənməsi KİV-in vəziyyətini dəyişdirir. KİV xalqın tərbiyəçisinə və fikirlərini yayan bir vasitəyə çevrilir. KİV-in bir qolu olan mətbuat məktəb rolunu oynayır. İnsanlar mətbuat vasitəsi ilə məlumatlanır, onun səhifələrində elmi, ədəbi, mədəni və siyasi xəbərlərlə tanış olur. Eyni zamanda mətbuat bir müəllim və tərbiyəçidir. O, mənəviyyatdan uzaq ola bilməz. Səviyyəsiz, söyüş, fitnə-fəsad törədən yazılar, əxlaqdan, mənəviyyatdan kənar çıxışlar mətbuatı hörmətdən salır. Jurnalistin insanların taleyi üçün məsuliyyətli olduğunu nəzərə alaraq onun fəaliyyətində peşəkarlıq əxlaqilik kimi çıxış edir.

"KİV-in əsas məqsədi informasiya vermək, həqiqəti axtarmaqda, tapmaqda oxucuya, tamaşaçıya və dinləyiciyə yardımçı olmaq, habelə hakimiyyətin fəaliyyətini

nəzarətdə saxlamaqdır. ...Jurnalist bir fərd kimi cəmiyyətin etik-mədəni dünyagörüşünə nəinki hörmət etməli, özünü də həmin parametrlərə uyğun kökləməlidir” [1, 143]. Bu mənada jurnalist ən ciddi peşə normalarına, prinsiplərinə söykənərək ictimai marağı öz marağından üstün tutmalıdır.

Hər bir peşənin etik normaları həmin sahənin inkişaf sürəti ilə çox bağlıdır. Jurnalist peşəsinin mürəkkəbliyi və məsuliyyəti ondadır ki, bu peşənin sahibi öz fəaliyyətində müxtəlif insanların, sosial qrupların, kollektivlərin maddi və mənəvi mənafeləri ilə bağlı problemlərə toxunmalı olur. Jurnalist topladığı məlumatları son dərəcə dəqiq yoxlamalı, faktlara əsaslanmalı, sübutsuz, dəlilsiz fikir yürütməməlidir. O, dövrün, zamanın qarşısına qoyduğu mürəkkəb problemlərin həllinə çalışmalıdır.

Jurnalistin ünvanına ən çox söylənilən ittihamlar: faktların təhrif olunması, həqiqətin gizlədilməsi, şəxsi həyata müdaxilə, şərəf və ləyaqətin alçaldılması, informasiya mənbəyinin göstərilməməsi və s.-dən ibarətdir. Jurnalist insanların şərəf və ləyaqətinə hörmət etməlidir. Şərəf, ləyaqət və nüfuz anlayışları bir-birinə çox yaxındır. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 23-cü maddəsi şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi məsələlərini tənzimləyir. Hüquq ədəbiyyatında şərəf anlayışının üç aspekti fərqləndirilir:

I. …şəxsiyyətin özəllikləri.

II. …ictimaiyyətin şəxsiyyətə verdiyi qiymət.

III. …cəmiyyət tərəfindən verilən və şəxsiyyətin qəbul etdiyi qiymət.

Jurnalistin şəxsi sənədlərdən düzgün istifadə etməsi, şəxsi həyata toxunması, özəl həyat sirrini açması jurnalist etikasına ziddir, bu peşənin norma və prinsiplərinin pozulmasıdır. Belə bir halda jurnalist nəyi etmək olar, nəyi olmaz arasında seçim etmək məcburiyyətində qalır.

Jurnalistin peşəkarlıq məharəti burada özünü biruzə verir. Müəyyən sahədə əsl bilik, hərtərəfli təhsil, yüksək hazırlıq səviyyəsi, ümumi mədəniyyət jurnalist peşəkarlığının əsas amili olduğu kimi, etik prinsiplər, normalar, kateqoriyalar və qanunlar jurnalistin yol göstəricisidir.

Şərəf və ləyaqətin alçaldılması insanın ictimai fikirdə şüurlu şəkildə gözdən salınmasıdır. Bu cür gözdənsalma söz formasında, yaxud bu və ya digər hərəkətin köməyi ilə baş verə bilər. Bəs, ləyaqət nədir? Ləyaqət insanın şəxsiyyət, peşəkar və s. kimi öz dəyərini hiss etməsidir.

Azərbaycan Respublikasının Konstitusiyasının 46-cı maddəsində deyilir: «Şəxsiyyətin ləyaqəti dövlət tərəfindən qorunur. Heç bir hal şəxsiyyətin ləyaqətinin alçaldılmasına əsas verə bilməz». 32-ci məddədə isə deyilir:

I. Hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır.

II. Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır.

III. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumatın toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, heç kəs onun xəbəri olmadan və ya etirazına baxmadan izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz.

IV. Hər kəsin yazışma, telefonla danışıqları, poçt, teleqraf və digər rabitə vasitələri ilə ötürülən məlumatın sirrini saxlamaq hüququna dövlət təminat verir. Bu hüquq qanunla nəzərdə tutulmuş qaydada cinayətin qarşısını almaqdan və ya cinayət

işinin istintaqı zamanı həqiqəti üzə çıxarmaqdan ötrü məhdudlaşdırıla bilər.

V. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hər kəs onun haqqında toplanmış məlumatlarla tanış ola bilər. Hər kəsin onun barəsində toplanmış və həqiqətə uyğun olmayan, tam olmayan, habelə qanunun tələblərini pozmaqla əldə edilmiş məlumatların düzəldilməsini və ya çıxarılmasını (ləğv edilməsini) tələb etmək hüququ vardır.

İnsanın şəxsi həyatının üç başlıca sahədə formalaşdığı qəbul edilir:

1. Şəxsin ümumi həyat sahəsi.
2. Şəxsin özəl həyat sahəsi.
3. Şəxsin gizli həyat sahəsi.

«Şəxsi həyata müdaxilə təkcə kiminsə yaşadığı əraziyə soxulmaq, gizli çəkiliş aparmaq deyil, ictimai və kütləvi yerlərdə şəxsin ən arzuolunmaz halda belə yaxalanması da buna aiddir» [7, 156].

Məsələn, aşağıdakı nümunəyə diqqət yetirək. «Ondan (söhbət Hacıbala Abutalıbovdan gedir – S.R.) öz fantaziyaları ilə heç də geri qalmayan qardaşı Osman, meriyanın ən önəmli işi - «kadr» islahatlarını» öz üzərinə götürdü. Məhz onun «xidmətlərinin» nəticəsidir ki, seçdiyi «yırtıcılar» nəinki paytaxt sakinlərinin, hətta regionların əhalisinin də ürəklərində «xüsusi yer» tuturlar. D'Artanyandan fərqli olaraq üç yox, daha çox muşketyorları olan Bakı meri məhz onların «xüsusi canfəşanlığı» nəticəsində səkkizinci ildir ki, postunda qalmaqdadır» («Açıq Həyat» qəzeti, 3 aprel 2008). Bu nümunədə şərəf və ləyaqətin alçaldılmasına yol verilib. Belə nümunələrdən çox misal gətirmək olar: «Zakir Qaralov fala baxırmış kimi Cinayət Məcəlləsini bəxtəbəxt açır və gözünü yumub barmağını səhifənin üstünə qoyur.

Kimin bəxtinə nə düşsə, həmin maddə ilə də şərləyirlər. Yəni Cinayət Məcəlləsi bunlar üçün Zakirin ayağının ölçüsü kimi bir şeydir, istənilən maddə işə yarayır». «Yeni Musavat» qəzetinin 16 may 2007-ci il tarixli 299-cu nömrəsindən götürülmüş bu nümunədə yuxarıda sadaladığımız prinsiplər pozulmuşdur.

«Azadlıq» qəzetinin 31 dekabr 2007-ci il tarixli sayında dərc olunmuş «Universitet filialları dükanı xatırladır», eləcə də «Gündəlik Bakı» qəzetinin 1 aprel 2008-ci il tarixli nömrəsində yer alan «Millətin başını batıranlar» yazıları da bu qəbildəndir.

Tənqid o zaman kəsərli olur ki, jurnalist səhih faktlara əsaslansın, problemə dərindən və hərtərəfli nüfuz etsin.

Jurnalist tənqid silahını işlətməzdən əvvəl öz məsuliyyət hissini daha dərindən dərk etməyə çalışmalıdır. Məsuliyyəti unudan jurnalistin tənqidi çıxışları arzuolunan nəticəni verməz, lazımsız söz-söhbətə səbəb olar. Tənqid insanlarda məsuliyyət hissini möhkəmləndirməyə, nöqsanların qarşısını vaxtında almağa kömək etməlidir. Tənqid kəskin olduğu qədər də məsuliyyətli olmalıdır. Çünki bu və ya digər məqalə şəxsi təsəvvürlərin və iddiaların inikası deyil, həm də ictimai işdir.

Jurnalist tənqidi materillarda şəxsiyyəti alçaldan, ona toxunan söz və ifadələr işlətməməlidir. Problemlərə tənqidi münasibət ciddi məsələdir. Jurnalist tənqidi material hazırlamazdan əvvəl öz məsuliyyətini dərk etməyə borcludur. Jurnalist etikası çox zaman tənqidi yazılarda pozulur. Tənqidi yazılar əks-səda doğurmaq üçün yazılmamalıdır.

İnsanın öz fikrini hüquqi baxımdan sərbəst ifadə etməsi onun yaşaması qədər zəruri keyfiyyətdir. Söz və mətbuat azadlığı olmadan demokratiya və tərəqqi mümkün deyil. Demokratik dəyərlərə yiyələnməyə başlayan cəmiyyətdə jurnalistlər bu

dəyərlərin daşıyıcısı və ötürücüsü rolunda çıxış edir. Bu mənada jurnalist azadlıqla özbaşınalığı qarışdırmamalıdır. Söz və mətbuatın tərənnümçüsü olan jurnalistin başlıca vəzifəsi mətbuat azadlığının ona verdiyi geniş imkanlardan istifadə edib, üzərinə düşən öhdəlikləri obyektiv, dəqiq və qərəzsiz şəkildə həyata keçirməlidir. Peşə ləyaqətini, oxucu etibarını yüksək tutan hər bir jurnalist öz vəzifəsinin icrası zamanı jurnalist məsuliyyətini unutmamalıdır. Jurnalist öz fəaliyyətini daxili məsuliyyət hissi ilə yanaşı, həm də "Kütləvi İnformasiya vasitələri haqqında" Azərbaycan Respublikasının qanununa, digər əlaqədar qanunvericilik aktlarına, auditoriyanın, peşə mühitinin hamı tərəfindən qəbul edilən prinsip və normalarına uyğun qurmalıdır.

Jurnalist dövrün, zamanın onun qarşısına qoyduğu mürəkkəb problemlərin həllinə çalışır. Belə problemlərdən biri də jurnalist yaradıcılığının etik problemləridir. Məlumatlandırmaq, maarifləndirmək, əyləndirmək kimi fundamental funksiyaları öhdəsinə götürmüş jurnalistlər üçün əsas meyar peşəkarlıqdır. Əsl peşəkarlığa isə qanunları, etik normaları və prinsipləri gözləməklə nail olmaq olar. "Jurnalist etikası, qələm sahibinin öz vicdanı, əməkdaşı olduğu redaksiya, auditoriya, cəmiyyət qarşısında məsuliyyət daşıması, hər bir addımının ölçülüb-biçilməsi deməkdir". "Nəyi etmək olar, nəyi olmaz" arasında seçim etmək çətin olsa da, bu zaman peşə etikasının prinsipləri, kodeksləri jurnalistin köməyinə gəlir. Etik normalar pozulanda xüsusi bir cəza tətbiq edilmir, burada nüfuz və ictimai rəy həlledici rol oynayır.

Təcrübə göstərir ki, KİV yarandığı vaxtdan vahid kodeksə deyil, minlərlə kodeksə, nizamnamələrə və qaydalar toplusuna istinad etmişdir. Bütün bu kodekslərə nəzər salsaq görərik ki, onları birləşdirən vahid xüsusiyyətlər vardır:

I. Kodekslərdə üstünlük verilən dəyərlər: doğruluq, həqiqilik, tərəfsizlik, obyektivlik, ictimai maraq və s.

II. Kodekslərdə tənqid olunan xüsusiyyətlər: yalan, qeyri-dəqiqlik, ədalətsizlik, şəxsi maraq, konflikt və qorxaqlıq.

Kodekslər jurnalist etikası sahəsində mövcud olan bütün problemləri həll etmək iqtidarında deyil. Jurnalist mürəkkəb etik normaları həll edərkən 3 cəhəti rəhbər tutmalıdır:

1) həqiqəti axtarmaq və onun haqqında mümkün qədər geniş məlumat vermək;
2) müstəqil fəaliyyət göstərmək;
3) başqalarina xələl gətirməmək.

Jurnalist fəaliyyətində mənəvi-əxlaqi seçimlə bağlı çətin məqamlarda etik kodekslər öz məsləhət xarakterli göstərişləri ilə jurnalistin köməyinə gəlir. Kodekslər jurnalistə düzgün qərar çıxartmaq üçün verilən imkandır. Jurnalistin kiçik bir səhlənkarlığı, diqqətsizliyi, kiminsə, nəyinsə xətrinə həqiqəti təhrif etməsi ağır mənəvi-psixoloji sarsıntılar, adamların ləyaqətinə, nüfuzuna xələl gətirə bilər. Buna görə də, jurnalist daim məsuliyyətli olmağa və etik kodekslərdə irəli sürülən prinsiplərə ciddi yanaşmağa, öz fəaliyyətində qanunları, etik kodeksləri, prinsipləri, normaları nəzərə almağa borcludur.

Jurnalist peşəsi çətin, təhlükəli və həm də çox məsuliyyətlidir. Ona görə jurnalist öz mövqeyində düzgün və obyektiv olmalıdır. Taleyini bu sahəyə bağlayanlardan jurnalist peşəsinin çətin, məsuliyyətli yollarında təzyiqlərə dözmək, jurnalistikanın yazılmış və yazılmamış qanunlarına, etik normalarına əməl etmək tələb olunur. Jurnalistika elə ictimai-sosial institutdur ki, ona mühüm ictimai-siyasi əhəmiyyət kəsb edən hadisələrə nəzarət etməyə, ictimaiyyət adından hökm verməyə, cəmiyyətdə səlahiyyət sahiblərinin işlərinə xalqın maraqları baxımından yanaşmağa əsas verir.

## ƏDƏBİYYAT


1. Məmmədli C. Jurnalistikanın müasir inkişaf meylləri. Bakı: Bakı Universiteti, 2006, 464 s.
2. Məmmədli Z., Hacılı R., Əliyev İ. Media hüququ. Bakı: Mediya Hüququ İnstitutu, 2006, 280 s.
3. Media Hüququ İnstitutu. Media etikası. Bakı: 2008, 276 s.
4. Maykl Berin. Jurnalist etikası. M.: Nauka, 1995, 230 s.
5. Абрамов Д.С. Профессиональная этика журналиста. М.: МГУ, 2000, 190 с.
6. Лазутина Г.В. Профессиональная этика журналиста. М.: МГУ, 2005, 280 с.
7. Муратов С.А. Телевизионное общение в кадре и за кадром. М.: МГУ, 2003, 250 с.


## ЖУРНАЛИСТИЧЕСКАЯ ПОЗИЦИЯ В КОНТЕКСТЕ СОБЛЮДЕНИЯ ЭТИЧЕСКИХ НОРМ


**С.И.РАГИМОВА**


### РЕЗЮМЕ


В деятельности журналистов сосредотачивается множество особенностей, имеющих общественное значение. Эти отношения характеризуют ответственность журналиста перед социальными группами, учреждениями и, в целом, перед обществом.

Этические нормы – показатель уровня развития общества, в котором немаловажную роль играют журналисты.

В статье рассмотрены профессиональные кодексы, нормы. Сделаны ряд выводов, которые могут быть полезными в подготовке современных журналистских кадров.


## THE POSITION OF A JOURNALIST ON THE CONTEXT OF ETHIC NORMS


**S.I.RAHIMOVA**


### SUMMARY


A lot of characteristic features, having the public importance and value are concentrated in journalist’s activity. These relations characterize the responsibility of every journalist before social groups, institutions and before the whole society.

Ethic norms – are the exponents of development level of the society in which journalists play an important role.

The professional codes, existing in the democratic countries, especially in the Azerbaijan Republic, were reviewed in the article. In addition, a number of conclusions are drawn as well, which can be useful in the training of modern journalistic staffs.